# “1 şəhid, 1 hekayə, 1 şeir”



**Sumqayıt Muğam Mərkəzində “1 şəhid, 1 hekayə, 1 şeir” kitabının 4-cü cildinin təqdimat mərasimi keçirilib.**

Xatırladaq ki, daha öncə Türkiyədə bu layihə üzrə kitabın 3 cildi nəşr olunub. Həmin cildlərdə qardaş ölkənin şəhidləri haqqında hekayələr və onlara ithaf edilən şeirlər yer alıb. İdeya müəllifinin yazıçı Harun Yıldırım olduğu layihənin Azərbaycan üzrə əlaqələndiriciləri İlhamə və Namiq Müslümovlardır. Birinci Qarabağ müharibəsi qazisi Anar Əliyevin maddi dəstəyi ilə çap olunan növbəti cilddə isə 59 müəllifin 62 şəhidin ömür yolundan bəhs edən yazıları öz əksini tapıb.

Təqdimat mərasimində Azərbaycan və Türkiyədən rəsmi şəxslər, yazarlar, mədəniyyət xadimləri və şəhid ailələrinin üzvləri iştirak ediblər. Əvvəlcə layihənin məqsədi açıqlanıb və şəhidlərin xatirəsinin ədəbiyyat vasitəsilə yaşadılmasının ictimai-mənəvi əhəmiyyəti vurğulanıb. Bildirilib ki, bundan əvvəl cildin Bakıda, Naxçıvanda və Zaqatalada da təqdimatları keçirilib.

Azərbaycan Yazıçılar Birliyi Sumqayıt bölməsinin sədri Gülnarə Cəmaləddin və Sumqayıt Poeziya Evinin direktoru İbrahim İlyaslı çıxış edərək kitabın mənəvi və tarixi önəmindən danışıblar. Sumqayıt Şəhər İcra Hakimiyyətinin ictimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini Fərman Kazımov, Müdafiə Nazirliyinin Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Sumqayıt Şəhər Baş İdarəsinin şöbə rəisi İlqar Qurbanov, Türkiyə Cümhuriyyətinin Azərbaycandakı səfirliyinin din xidmətləri üzrə müşaviri İhsan Açıq bəy, Sumqayıt Tibb Mərkəzinin ictimaiyyətlə əlaqələr bölməsinin müdiri Ramil Zeynallı və digər çıxışçılar ölməz qəhrəmanlara əbədi ehtiramın mənəvi borcumuz olduğunu qeyd edib, layihənin ərsəyə gəlməsində zəhməti olan hər kəsə təşəkkürlərini bildiriblər.




Sonra kitabda həyat hekayələri yer almış, Sumqayıt şəhəri, Abşeron və Xızı rayonlarının yetirmələri olan şəhidlərin ailə üzvləri və onların təhsil aldıqları orta məktəblərin direktorları səhnəyə dəvət olunublar və onlara kitabın nüsxələri təqdim edilib.

Tədbirin ədəbi-bədii hissəsində tanınmış müğənnilər vətənpərvər mahnılar ifa edib, qiraət ustaları isə kitabda yer alan şeirləri səsləndiriblər. Sonda kitabda gedən yazıların müəllifləri səhnəyə dəvət olunaraq alqışlanıblar.

Azərbaycanın Milli Qəhrəmanı, şəhid general Polad Həşimovun anası Səmayə Həşimovanın kitab haqqında dedikləri:

- Çox gözəl təqdimatlar oldu. İstərdik ki, bu cür layihələr daimi xarakter daşısın. Şəhidlərimiz unudulmasın, dünya durduqca yaşasınlar.

Qeyd edək ki, artıq “1 şəhid, 1 hekayə, 1 şeir” layihəsinin 5-ci cildinin hazırlanmasına başlanılıb.

***XQ***

Xalq qəzeti.- 2025.- 31 dekabr (№ 275).- S.21.